Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

# Qərbi azərbaycanlılar vətənə dönür, toponimlər bərpa edilir - dövlətçilik tariximizin silinməz səhifəsi...

**Qədim dövlətçilik ənənəsinə malik olan Azərbaycanın ərazisi çox geniş olub. İndiki Ermənistan da daxil olmaqla, hazırda qonşu olduğumuz bir çox ölkələr Azərbaycan torpaqlarına sahibləniblər. Çox zaman bir söz işlədilir ki, Azərbaycan dünyada yeganə dövlətdir ki, öz tarixi torpaqları ilə həmsərhəddir.**



Düşündürücü faktdır. Qədim tarixə, zəngin mədəniyyətə, unikal adət-ənənəyə malik olan Azərbaycan xalqı tarixdə özünəməxsus izlər qoyub.

Qərbi Azərbaycan ərazisində xalqımız çox zəngin mədəniyyət yaratmaqla yanaşı, burada həm də zəngin toponimlərə, yer-yurd, dağ-çay, ərazi adlarına sahibdir. Qərbi Azərbaycan toponimləri ermənilər tərəfindən total şəkildə saxtalaşdırmaya məruz qalsalar da, onların hər birinin adı, mənşəyi barədə məlumatlar tarixi mənbələrdə, arxivlərdə, xəritələrdə, elmi-tədqiqat əsərlərində mövcud olduğu üçün onları yenidən bərpa etmək tam mümkündür. Onu da vurğulayaq ki, artıq müvafiq qurumlarda bərpa prosesinə başlanılıb.

Hazırda Qərbi Azərbaycan türkləri öz ata-baba yurdlarına Böyük Qayıdışa hazırlaşırlar. Hər kəs o gözəl günü həstətlə gözləyir ki, bircə qayıdış vaş versin, onlar öz uçmuş, viran qalmış evlərinə, sönmüş ocaqlarına sahib çıxsınlar.

### Qərbi Azərbaycan toponimlərinin bərpası gündəmdə…

Məlum olduğu kimi, artıq Qərbi Azərbaycana Qayıdış Konsepsiyası təsdiqlənib və soydaşlarımızın geridönüşünün reallaşmasına az qalıb.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli deyib ki, Qərbi Azərbaycana Qayıdış böyük bir prosesdir. "Buna beynəlxalq zəmanətlə yanaşı, Ermənistan dövlətinin də təminatı lazımdır. Sonuncu deportasiya zamanı o ərazilərdən qovulmuş soydaşlarımızın əksəriyyətinin bölgələrdəki evi, əmlakı, mülki əvəzi ödənilmədən əllərindən alınıb. Ona görə Qərbi Azərbaycana Qayıdış Konsepsiyasında həmin soydaşlarımızın mülkiyyət hüququnun bərpa olunması məsələsi qoyulub. Eyni zamanda, onların torpaq sahələrinin icmalara qaytarılması məsələsi konsepsiyada öz əksini tapıb ki, Qərbi Azərbaycan İcması olaraq biz təkcə bu köçürülmə prosesində fəal iştirak etməklə işimizi bitmiş hesab etməyəcəyik. Soydaşlarımız həmin ərazilərə qayıtdıqdan sonra da Qərbi Azərbaycan İcması olaraq fəaliyyətimizi davam etdirəcəyik - təbii ki, beynəlxalq təşkilatlarla, o ərazidə yerləşən, yeni, Qərbi Azərbaycan İcmasının etibar etdiyi dövlətin sülhyaratma missiyası ilə bir yerdə. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı ilə bir yerdə vətəndaşlarımızın həmin ərazidə təhlükəsiz yaşaması məsələsi həll olunmalıdır".

Ə.Ələkbərli vurğulayıb ki, son 200 ildə soydaşlarımız etnik təmizləmələrə, deportasiyalara, soyqırımlara məruz qalaraq həmin coğrafiyalardan zorla köçürüldükdən, çıxarıldıqdan sonra bu ərazilərdəki Azərbaycan izləri ermənilər tərəfindən silinib, məhv edilib. "Toponimlərimiz dəyişdirilib, abidələrimiz saxtalaşdırılıb, məhv edilib. Bu ərazilərdəki tarixi-mədəni abidələrimizin vəziyyəti dəyərləndirilməlidir. Onların bərpası məsələsi gündəmə gəlməlidir. Hansı ərazilərə ki, soydaşlarımız köçürüləcək, o ərazilərin toponimlərinin geri qaytarılması, Azərbaycan adlarının bərpa olunması məsələsi də Qayıdış Konsepsiyasında öz əksini tapıb"-deyə icma rəhbəri vurğulayıb.

### "Toponimlərin bərpası işi çox vacib və zəruridir"

AMEA-nın Qafqazşünaslıq İnstitutunun erməníşünaslıq şöbəsinin müdiri professor Qasım Hacıyev bizimlə söhbətində bildirdi ki, Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının içində qədim oğuz-türk toponimlərinin bərpası ilə bağlı məsələyə yer verilməsi müsbət haldır. Q.Hacıyev qeyd etdi ki, ermənilər 195 il bundan əvvəl bizim torpaqlara köçürüldükdən sonra Çar Rusiyanın "xeyir-duası" ilə burada kök salmağa başlayıblar. O, vurğuladı ki, bundan sonra tədricən Azərbaycan türklərinin tarixi ərazilərində milli toponimlərimiz tədricən erməniləşdirməyə başlanılıb. Professor Hacıyevin sözlərinə görə, Çar Rusiyası dövründə kəndlərimizə, şəhərlərimizə Çar ailəsi üzvlərinin, çarın həyat yoldaşının adı verilirdi, nəticədə isə həmin kəndin, mahalın tarixi adı qəsdən aradan çıxarılırdı. O, bildirdi ki, o vaxt xeyli yerlərin adları dəyişmişdi. Çar Rusiyasından sonra isə bu saxtalaşdırma işinə ermənilərin daha geniş şəkildə qoşulduğunu deyən Q.Hacıyevin sözlərinə görə, ermənilər həm Sovet dövründə, həm də ondan sonra bütün toponimlərimizin adlarını dəyişdirməyə çalışıblar və buna 1988-ci ildən sonra tam nail olublar: "Toponim hər bir xalqın o ərazidə qədimliyini təsdiqləyən amildir. Qərbi Azərbaycanda minlərlə, onminlərlə toponimlər olub ki, onların adları, etmologiyası Azərbaycan-türk tarixi ilə bağlı olub. Bu toponimlərə bizim ulu babalarımız, əcdadlarımız ad qoyublar. 1988-ci ildən sonra ermənilər bizim toponimləri tam olaraq saxtalaşdırıblar, onları qondarma adlarla əvəzləyiblər. Çox təəssüf ki, onların bu saxtakarlığına bizdən başqa reaksiya verən olmayıb. Bu gün artıq vəziyyət başqadır. Söhbət soydaşlarımızın yenidən öz tarixi ərazisinə, Qərbi Azərbaycana qayıdışından gedir. Artıq Qərbi Azərbaycana Qayıdış Konsepsiyası təsdiqlənib və burada geriqayıdışın bütün detalları öz əksini tapıb. Əlbəttə, toponimlərin bərpası işi çox vacib və zəruridir. Bu çox əhəmiyyətlidir. Əslində, o toponimlərin hər birinin adı var, bilinir. Bu gün elmi-tədqiqat institutlarında xüsusi şöbələr yaradılıb, onların əsas işlərindən biri Qərbi Azərbaycan toponimlərinin bərpası ilə bağlıdır. Hesab eidrəm ki, bərpa prosesi çətin olmayacaq, çünki dediyim kimi, bütün adlar var, toponimlər dəyişdirilsə də, onların tarixi adları unudulmayıb.

Soydaşlarımız öz kəndlərinə, ev-eşiklərinə döndükdən sonra yaşadıqları ərazidə olan bütün milli toponimlər öz adları ilə olacaq və bunlar xəritələrdə milli adlarla qeyd ediləcək. Çünki sənədlər, sübutlar, kitablar var.

Toponimlərin bərpası ilə bağlı cənab Prezidentin də tövsiyələri var. Əlbəttə, Prezident də dəfələrlə deyib ki, tarixi ərazilərimiz öz tarixi adları ilə ifadə olunmalıdır və bu adlar rəsmən bərpa olunur. Proses gedir, Qərbi Azərbaycan İcmasının bu işi təqdirələydir. Hesab edirəm ki, proses uğurla başa çatacaq" - deyə Q.Hacıyev qeyd etdi.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**